***Teleradio fəaliyyəti əhalinin bütün təbəqələrinin daimi, həm də birbaşa təmasda olduğu xüsusi bir sahədir. İnsanlar radionu dinləməklə və ya televiziya ekranı qarşısında əyləşməklə həm informasiya alır, həm maariflənir, həm də əylənirlər. Bir çoxları onları düşündürən, narahat edən problemlərlə bağlı daha çox, həm də daha tez radio və televiziya vasitəsilə məlumat əldə edirlər. Əhalinin ən müxtəlif təbəqələri özlərinin arzu, istək və planlarının reallığa çevrilməsi, yaxud da onları narahat edən problemlərin müvafiq dövlət orqanlarının diqqətinə çatdırılması məqsədilə radio və televiziyadan həm də tribuna kimi istifadə edirlər.***

# Azərbaycanda teleradio fəaliyyətinə dövlət qayğısı



Ədalət naminə deməliyik ki, hələ sovet rejiminin tüğyan etdiyi, sərt senzura və çoxsaylı digər maneələr olduğu illərdə belə Azərbaycan televiziyası və radiosu milli–mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətində, həqiqətən, çox böyük işlər görüb. Xüsusən də ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə televiziya və radiomuzda milli ruh daha da güclənib. Başqa sözlə, o illərdə Azərbaycan televiziyası və radiosu, sözün əsl mənasında, görkəmli ziyalılarımızın, elm və mədəniyyət xadimlərimizin, bütövlükdə, azərbaycançılıq ideyalarının tribunasına çevrilmişdir.

Bu gün dünyanın hər yerində, həm də bütün səviyyələrdə informasiyaları əldə etmək və onları sərfəli istiqamətlərə yönəltmək sahəsində birinciliyə sahib olmaq uğrunda əsl yarış gedir. Bu baxımdan televiziya və radio geniş imkanları olan, hər cür informasiyanı bir an içərisində bütün dünyaya yaymaq qüdrətinə malik çox mühüm bir vasitədir. Razılaşaq ki, indiki dövrdə çoxşaxəli internet xidmətlərinin təsir imkanları nə qədər artsa da, televiziya və radio əvvəlki kimi, yenə də insanların ən geniş, həm də bütün təbəqələrinin daha çox təmasda olduğu və xidmətlərindən faydalandığı informasiya vasitəsi kimi qalmaqdadır. Bəli, həm televiziya, həm də radio hər zaman özünün rəngarəng proqramları ilə insanları düşündürmək, maarifləndirmək, tərbiyələndirmək, əyləndirmək, zərurət yarandıqda isə həm də səfərbər etmək imkanına malikdir. Ona görə də televiziya və radionun imkanlarından maksimum dərəcədə səmərəli və məqsədyönlü istifadə olunması dövlətin və millətin tərəqqisi üçün çox önəmli məsələdir.

Ölkə Prezidenti cənab İlham Əliyev bu yaxınlarda "Real" televiziyasına müsahibəsində medianın cəmiyyət həyatında və dövlət idarəçiliyi məsələlərindəki rolundan bəhs edərkən demişdir: "Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm". Bəli, diqqətli oxucular da şahiddirlər ki, bir çox hallarda televiziya və ya radioda qaldırılan taleyüklü problemlərlə bağlı ölkə rəhbərliyinin, şəxsən cənab Prezidentin və Birinci vitse-prezidentin tapşırığı ilə təcili və təsirli tədbirlər görülür.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından keçən illər ərzində ölkədə demokratiyanın inkişafı, söz və fikir azadlığının təminatı istiqamətində böyük uğurlar əldə olunub. Azərbaycan Respublikasının Konstitusiyasında söz azadlığı və fikir plüralizmi ən yüksək səviyyədə təsbit edilib. 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən senzuranın ləğvi də ölkədə söz və məlumat azadlığının bərqərar olmasında və inkişafında müstəsna rol oynadı. Beləliklə, Azərbaycanda azad sözün, müstəqil medianın, o cümlədən teleradio sisteminin sürətli inkişafı üçün, zəruri şərait yaradılmış oldu. Təbiidir ki, belə bir şəraitdə ölkədə teleradio sisteminin dinamik və uğurlu inkişafı üçün ilk növbədə, bu sahənin hüquqi cəhətdən tənzimlənməsi vacib idi. Odur ki, 2002-ci ildə "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi. Bir il sonra ölkədə televiziya və radio yayımı sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin etmək və bu fəaliyyəti tənzimləmək məqsədilə Milli Televiziya və Radio Şurası yaradıldı. 2004-cü ildə "İctimai Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. 2005-ci ildə isə İctimai Televiziya və İctimai Radio efirə çıxdı. Onların ardınca "İdman Azərbaycan" və "Mədəniyyət" kanalları, habelə özəl yayımçılar olan "Xəzər" TV, "CBC sport", "ARB" və "ARB-24" televiziyaları, "Xəzər" FM, "Araz" FM, "Kəpəz" FM, eləcə də "Asan" və Nəqliyyat İntellektual İdarəetmə Mərkəzinin radioları fəaliyyətə başladı. 2017-ci ilin sonunda və 2018-ci ildə "Dalğa" TV, "Muz" TV, "Real" TV kimi peyk yayımçılarının fəaliyyətə başlaması ilə Azərbaycanın efir məkanı daha da rəngarəng oldu.

Böyük qürur hissi ilə deməliyəm ki, bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət xətti sayəsində respublikamız Avropa və Asiyanın qovşağında olan böyük və həm də son dərəcə əhəmiyyətli bir regionun aparıcı dövlətinə çevrilmişdir. Ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlar göz qabağındadır və əlbəttə, Azərbaycanın teleradio məkanında son illər baş vermiş çox ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri də bu baxımdan diqqəti cəlb etməyə bilməz.

Hazırda Azərbaycanda 11 ölkə, 12 regional, 3 peyk televiziyası, 1 xarici ölkə yayımçısı, 17 kabel televiziyası və 20-dən çox İP televiziya fəaliyyət göstərir. Məmnunluq hissi ilə bildirim ki, bu gün respublikamızda 7 tematik televiziya kanalı, iki xəbər kanalı, ayrıca mədəniyyət, musiqi və uşaq kanalları fəaliyyət göstərir. Bunlardan əlavə, ölkə yayımçısı olan 13 radio və 3 regional radio gündəlik olaraq efirdədir.

Son illər ölkədə fəaliyyət göstərən televiziyaların maddi texniki şəraitinin yaxşılaşdırılması istiqamətində də çox ciddi işlər görülmüşdür. Bu cəhətdən "Xəzər" televiziyası, habelə Sumqayıt, Lənkəran, Şəki, Yevlax, Gəncə, Xaçmaz və Quba-da yerli televiziyalar üçün müasir binalar tikildiyini və onların ən müasir texniki avadanlıqla təchiz olunduğunu xüsusi qeyd etmək lazımdır. Qısa zaman kəsiyində üç rabitə peykinin orbitə çıxarılması, beləliklə də ölkəmizin kosmik ailədə layiqli yer alması da teleradio yayımı sahəsinin uğurlarına təsir göstərən mühüm amil kimi dəyərləndirilməlidir.

Müstəqillik illərində ölkəmizdə teleradio fəaliyyətinə dövlət qayğısından bəhs edərkən ehtiyacı olan jurnalistlərin mənzillə təmin olunmasını, onlara fəxri adlar verilməsini, çoxsaylı veteran kadrların Prezident təqaüdü almasını, bu sahədə çalışan insanların peşəkarlığını artırmaq məqsədilə vaxtaşırı qrant müsabiqələrinin elan olunmasını da qeyd etmək yerinə düşər.

"Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununa görə, ölkəmizdə "dövlət və yerli özünü idarəetmə orqanlarının, siyasi partiyaların, ictimai birliklərin, həmkarlar ittifaqı təşkilatlarının, fiziki və hüquqi şəxslərin yayımçıların yaradıcılıq və redaksiya fəaliyyətinə müdaxiləsi qadağandır". Başqa sözlə, Azərbaycanda televiziya və radio yayımçıları yaradıcılıq məsələləri və redaksiya fəaliyyətində tam şəkildə azad və sərbəstdirlər. Onlar efir səbətini özləri tərtib edir, nəyi və necə vermәyi özləri müəyyən edirlər. Bir şərtlə ki, yayımçılar öz fəaliyyətində informasiyaların əhatəliliyi, obyektivliyi, tam və doğru-dürüstlüyü, vətəndaşların öz fikir və baxışlarını sərbəst ifadə etməsi, ideoloji və siyasi plüralizm, tərəfsizlik və qərəzsizlik, insanların şəxsi və ailə həyatına müdaxiləsinin yolverilməzliyi, milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət edilməsi, proqramların keyfiyyətliliyi prinsiplərinə əməl etsinlər. Qanunvericiliyin tələbi olan bu prinsiplər, əslində, efirin hüdudları deməkdir. Yəni, yayımçıların yaradıcılıq məsələləri və redaksiya fəaliyyətindəki azad və sərbəst olmaları heç də o demək deyildir ki, onlar üçün ümumiyyətlə, hədlər yoxdur.

Baxmayaraq ki, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq yayımçılardan hər birinin həm də kommersiya maraqları vardır. Yəni, onların normal fəaliyyəti, maraqlı proqram və layihələr ortaya qoyması, yayımın texniki standartlar səviyyəsində olmasının təmin edilməsi, peşəkar kadr potensialı yarada bilməsi – bütün bunlar, əlbəttə ki, hər şeydən öncə, kifayət qədər maliyyə resurslarının olmasını şərtləndirir. Təbiidir ki, dövlət büdcəsindən maliyyələşən Azərbaycan Televiziyasının, İctimai Televiziyanın, "İdman Azərbaycan", "Mədəniyyət" və "CBC sport" kanallarının, habelə Azərbaycan radiosu və İctimai radionun bu cəhətdən sıxıntıları yoxdur. Bu mənada tamaşaçı auditoriyasının həmin yayımçılardan daha çox maarifləndirici proqramlar umması tamamilə normal bir istəkdir. Xatırladaq ki, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununa görə, proqramlar yayım üçün hazırlanarkən maarifçilik və mədəniyyət məsələlərinə üstünlük verilməli, proqramların tarazlaşdırılması yolu ilə efirin kommersiya, informasiya, yaxud digər eynitipli verilişlərlə yüklənməsinin qarşısı alınmalıdır. Odur ki, Azərbaycan televiziyaları qanunvericiliyin tələblərinə uyğun olaraq özlərinin efir fəaliyyətində maarifçilik işinə, o cümlədən mədəni irsin təqdimi və təbliği tematikasına xüsusi önəm verməlidirlər. Bu tələb mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, bütün yayımçılara aid olsa da, reallıqda mədəni irsin təqdimi və təbliği işində əsas yük dövlət büdcəsindən maliyyələşən televiziyaların üzərinə düşür. Başqa sözlə, Azərbaycan Televiziyası, Mədəniyyət və İdman – Azərbaycan kanallarının, xüsusilə də İctimai Televiziyanın mədəni irsimizin təqdimi və təbliği sahəsindəki rol və məsuliyyətini daha da artırır.

Lakin onu da etiraf edək ki, son vaxtlaradək idarəçiliyin pozulması, yetərincə effektli proqram siyasəti və yaradıcı mühit olmaması ucbatından həm Azərbaycan Televiziyası, həm də İctimai Televiziyanın fəaliyyətindən ictimai narazılıq artmışdı. Kifayət qədər mütərəqqi milli ənənələri, peşəkar kadr potensialı, mükəmməl maddi-texniki bazası olan və hərtərəfli dövlət təminatı ilə əhatə edilən bu kanalların efiri son vaxtlar, həqiqətən, çox maraqsız olmuşdu. Maarifləndirici proqram və verilişlərin sayı azalmış, keyfiyyəti isə aşağı düşmüşdü. Mənəvi-psixoloji mühitin pozulması və rəhbərlik tərəfindən mənfi tendensiyaların getdikcə daha artıq şirniklәndirilməsi ucbatından öz peşəkarlığı ilə tanınan və geniş tamaşaçı auditoriyasının rəğbətini qazanmış olan ayrı-ayrı təcrübəli və səriştəli kadrlar artıq bu kanalları tərk etməkdə idilər.

Əfsuslar olsun ki, Teleradio Şurası tərəfindən davamlı olaraq edilən irad və tövsiyələr də səmərə vermədi. Bütün bunlar isə nəticə etibarı ilə hər iki kanalda kadr dəyişiklikləri aparılmasını zəruri etdi. Beləliklə, cənab Prezidentin sərəncamı ilə AzTV-nin, İctimai Televiziyanın Yayım Şurasının qərarı ilə isə İTV-nin rəhbərliyi yeniləndi. İndi hər iki kanala gənc, işgüzar və yaradıcı insanlar rəhbərlik edirlər. Həyata keçirilən kadr dəyişikliklərinin müsbət nəticəsi isə artıq həmin telekanalların gündəlik efirindən də hiss olunmaqdadır.

Etiraf edək ki, bu gün özəl teleradio yayımçıları arasında da işləri rəvan getməyən kanallar var. Reytinqli verilişləri yox dərəcəsində olan, efir səbətini çox zaman primitiv şou və çal-çağır səhnələri ilə dolduran, zamanın çağırışlarından geri qalan, tamaşaçı və dinləyicilərin arzu və istəklərini doğrulda bilməyən həmin kanalların təsisçiləri və rəhbərləri də artıq vaxtdır ki, nəyisə və kimlərisə dəyişmək barədə düşünsünlər.

Azərbaycan dövləti televiziyalar vasitəsilə mədəni irsin təqdimi və təbliği işini daim diqqətdə saxlayır, bu sahədə yaranan və yarana biləcək hər hansı problemin vaxtında aradan qaldırılması istiqamətində zəruri tədbirlər həyata keçirir. Məsələn, yaxın keçmişdə efir məkanımız Latın Amerikası ölkələrinin istehsalı olan və bir çox hallarda Azərbaycan mentaliteti ilə əsla uzlaşmayan ucuz teleseriallarla dolmuşdu. Bu isə xalqın çoxəsirlik milli-mənəvi dəyərlərini sürətlə aşınmaya aparırdı. Bunu nəzərə alaraq ölkə Prezidenti 2012 – 2013-cü illərdə milli teleseriallar çəkmək məqsədi ilə telekanallara təqribən 15 milyon ABŞ dolları həcmində yardımlar ayırdı. Hansı ki, həmin yardımlar sayəsində özəl telekanallar tərəfindən xeyli sayda nisbətən keyfiyyətli efir materialı ortaya qoyuldu. Amma təəssüf hissi ilə onu da etiraf etməliyik ki, ölkə Prezidentinin ayırmış olduğu vəsait hesabına çəkilən film və teleseriallarin heç də hamısı tamaşaçı rəğbəti qazanmadı və çox qısa vaxt ərzində efirlərdən yoxa çıxdı.

Azərbaycan televiziyalarının və radiolarının ölkəmizin bütün bölgələrində keyfiyyətli yayımının təşkili hər zaman aktual olan problemlərdəndir. Televiziyaların rəqəmsal yayıma keçməsi ilə bu sahədə vəziyyət, demək olar ki, arzuolunan səviyyəyə çatdırılıb. Radioların yayımında isə hələ ki problemlər qalmaqdadır. Yəni, kifayət qədər radioverici – ötürücü stansiyası olmayan bəzi radioların siqnalları əksər bölgələrə və sərhədyanı ərazilərə gedib çatmır. Əvəzində isə qonşu dövlətlərin radio stansiyalarının siqnalları ölkəmizin içərilərinədək gəlib çatır. Bu cür problemlər olmasın deyə, yerlərdə ötürücü stansiyaların sayı və gücü artırılmalıdır. Cəmiyyətin informasiya ehtiyaclarının ödənilməsi sahəsindəki fəaliyyətinin stimullaşdırılması, texniki imkanlarının artırılması və əhatə dairəsinin daha da genişləndirilməsinin zəruriliyini nəzərə alaraq cənab Prezident 2016-cı ildə özəl teleradio yayımçılarına 2 milyon, 2018-ci ildə 3 milyon və nəhayət, 2019-cu ilin yanvar ayında daha 3 milyon manat məbləğində maliyyə yardımı ayrılması barədə sərəncamlar imzalamışdır. Bu isə, ilk növbədə, teleradio yayımçılarının zəruri yerlərdə müasir ötürücü stansiyalar qurmasına imkan yaradır.

Bu yerdə efirdə dövlət dilindən istifadə ilə bağlı son illər imzalanmış fərman və sərəncamları da yada salmaq yerinə düşər. Hansı ki, bu sənədlərdən hər biri ölkəmizdə dövlət başçısı səviyyəsində xalqımıza məxsus milli-mənəvi dəyərlərə sonsuz qayğı və həssasiyyətlə yanaşma nümunəsidir. Ölkədə teleradio fəaliyyətini tənzimləyən dövlət qurumunun rəsmisi olaraq tam məsuliyyətlə deyə bilərəm ki, bəli, qeyd olunan Prezident fərman və sərəncamları teleradio yayımçılarının efir dilindən istifadə zamanı daha məsuliyyətli və həssas olmaları üçün həqiqətən çox ciddi təkan oldu. Lakin bu istiqamətdə görülən tədbirlərin hələ də yetərincə olmadığını nəzərə alaraq cənab Prezident ötən il noyabrın 1-də "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman imzaladı. Fərmanda deyildiyi kimi, Azərbaycan dilinin mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malik olmasına baxmayaraq, hələ də televiziya və radio kanallarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi, az qala, adi hala çevrilmişdir. Göründüyü kimi, çox ciddi və haqlı iradlardır. Hazırda həm Teleradio Şurası, həm də teleradio yayımçıları aidiyyatı dövlət qurumları ilə birlikdə fərmandan irəli gələn vəzifələrin icrası istiqamətində davamlı tədbirlər həyata keçirməkdədirlər. Diktorların və teleaparıcıların peşəkar dilçi mütəxəssislərin iştirakı ilə keçirilən treninqlərdə iştirakı artıq özünün müsbət nəticələrini verməkdədir.

Heç kəsə sirr deyil ki, efirə gedən bu və ya digər verilişin nə dərəcədə uğurlu, əhəmiyyətli və baxımlı olacağı birbaşa müəllif və aparıcıların özünün şəxsiyyətindən, onların intellektual səviyyəsindən çox asılıdır. Çoxsaylı peşəkar televiziya kadrlarının yetişməsi də müstəqillik illərində Azərbaycanda teleradio fəaliyyəti sahəsində əldə edilmiş uğurların bariz göstəricisidir. Bununla belə, təəssüf hissi ilə onu da bildirməliyəm ki, bu gün telekanallarımızda peşəkar kadrların qıtlığı açıq-aşkar hiss olunur. Təkcə aparıcılar deyil, ümumilikdə, digər sahələrdə də peşəkar televiziya kadrlarının çatışmaması hazırkı dövrdə televiziyalarımızın, lap elə radiolarımızın da bir nömrəli probleminə çevrilib. Teleradio işçiləri içərisində təsadüfi insanların da olması təəssüf doğurur. Bəli, nə qədər təəccüblü olsa da, efir imkanlarından sui-istifadə edən, kamera və mikrofonları işə salaraq "ağa nəzərəm, belə gəzərəm" düşüncəsi ilə davranan, vəzifə borcunu unudaraq açıq-aşkar dələduzluqla məşğul olan üzdəniraq teleradio işçiləri də var. Halal və qanuni fəaliyyət yolu ilə Vətənə və xalqa xidmət etməyi bacarmayan, bu üzdən də ölkədən qaçıb ayrı-ayrı antiazərbaycan yuvalarında gizlənərək dağıdıcı və düşmən dairələrin əlində oyuncağa çevrilmiş bir para üzdəniraq qələm və mikrofon sahibləri də artıq çoxdandır ki, qırmızı xətti keçiblər. Əlbəttə, belələrinin kimliyi, çağırışlarının məqsədi, fəaliyyətlərinin bütünlüklə etik və hüquq normalarına zidd olduğu və nəhayət, onları istiqamətləndirərək maliyyələşdirənlər Azərbaycan mediası, o cümlədən ölkənin teleradio camiəsində birləşən sədaqətli və peşəkar insanlar tərəfindən tam təfsilatı ilə araşdırılaraq cəmiyyətə təqdim olunmalıdır.

Zaman keçdikcə, Azərbaycanın teleradio məkanında inkişaf və yeniləşmə prosesi daha da sürətlənir, genişlənir və şaxələnməkdə davam edir. Dünya teleradio məkanında baş verən yeniliklər tədricən Azərbaycanın teleradio mətbəxində də özünə yer alır. Dövlətimizin qayğısı sayəsində sahənin maddi-texniki bazası, demək olar ki, hər an yeniləşməkdə davam edir. Bütün bunlar isə teleradio fəaliyyəti ilə məşğul olan insanların öz işinə daha yaradıcı yanaşmalarını, daha çevik, daha operativ və daha məsuliyyətli olmalarını tələb edir. Mən o fikirdə deyiləm ki, bu gün Azərbaycanın teleradio məkanında hər şey qaydasındadır. Əksinə, iş olan yerdə, yaradıcılıq axtarışları olan yerdə səhvlərə və nöqsanlara da təsadüf edirlər. Bir şərtlə ki, həmin səhvlər və nöqsanlar vaxtında aradan qaldırılsın və onların xroniki hal almasına yol verilməsin.

Kimlərin hazırlamasından, nə dərəcədə real olub-olmamasından və bizim qəbul edib-etməməyimizdən asılı olmayaraq, günümüzdə nəinki televiziya və radioların, hətta onların ayrı-ayrı verilişlərinin belə üzdə olan bir reytinq cədvəli var. Mövcud reklam resursları əsasən məhz həmin reytinq cədvəlləri əsasında bölünür. Bu da bir həqiqətdir ki, qalmaqallı şou verilişləri hələlik reytinq siyahılarının önündə gedir. Amma buradan belə nəticə çıxarmaq olmaz ki, əlahəzrət tamaşaçı və dinləyici məhz bu cür verilişlərə köklənib. Gəlin, düşünək, bəlkə, bu efirimizdə keyfiyyətli və daha maraqlı verilişlər kifayət qədər olmadığından belədir? Hər halda aidiyyatı dövlət qurumlarına, o cümlədən Teleradio Şurasına ünvanlanan çoxsaylı tamaşaçı və dinləyici müraciətləri səbəbsiz deyil. Bu müraciətlər ictimaiyyətin geniş təbəqələrinin arzu və istəkləri zəminində formalaşır. Əgər teleradio yayımçıları istəyirlərsə ki, onların reytinqi yüksələn xətlə getsin, onda daim ictimai rəyi öyrənməli və nəzərə almalıdırlar. Bunun üçün təkcə efirdən diktə etmək və bəzi kanallarda olduğu kimi, effektsiz təbliğat aparmaq azdır. Daha çox cəmiyyətin içərisinə getmək, maraqlı ideyalar, hər kəs üçün faydalı ola biləcək təklif və təşəbbüsləri öyrənmək gərəkdir.

***Qafar CƏBİYEV,***
***Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurası sədrinin müavini, tarix elmləri doktoru, Əməkdar jurnalist***